# Xalq təbabəti

**Badam** kişmiş və qəndlə yeyildikdə göy öskürəyi kəsir, köksü bəlgəmdən təmizləyir, kirəçlənmiş damarları genişləndirir. Vaxtaşırı yeyəndə bədənin ümumi müqavimətini artırır, əhval-ruhiyyəni yüksəldir, sidik yandırmasının qarşısını alır. Badam qanı, gözün nurunu artırır. Acı badam yağını içdikdə böyrəkdəki və sidik yollarındakı daşı tökür. Acı badam yağını qulağa damcılatmaqla başdakı uğultunu kəsmək olur. Bu həm də baş-beyin xəstəlikləri-ni sağaldır.

**Mərci** suda qaynadılaraq istifadə edildikdə yumşaldıcı xassəyə malikdir. Sirkə ilə tam bişirilmiş halda mədəyə köp vermir, bədəni möhkəmləndirir. Qaynadılmış suyunu içmək öskürək, ağız yarası, sinə və boğaz ağrısı üçün faydalıdır. Onun çiy yumurta ilə qatışığı dəridə olan çatlar üçün xeyirlidir. Bal ilə təpitməsi yara üçün, kələm yarpağı ilə təpitməsi isə döş üçün faydalıdır.

**Banan** ürək və əzələ sistemi üçün yararlıdır, yorğunluğu aradan qaldırır, yüksək təzyiqin qarşısını alır. Yuxunu rejimə salır, mədə xorasının qarşısını alır və onların müalicəsinə kömək edir. Xolesterolu azaldır və mədə ağrısına məlhəmdir. Bundan başqa banan həm də böyrəkdəki iltihablaşmanın qarşısını alır.

**Xurma** acqarına bir müddət yeyildikdə qarındakı qurdları məhv edir, göy öskürəyi kəsir, kürək-bel ağrılarını dəf edir, bəlğəmi qurudur, iflici, çəpgözlüyü aradan qaldırır, qanı çoxaldır. Çəyirdəyi yandırılıb sürmə kimi gözə çəkildikdə gözün görmə qabiliyyətini gücləndirir, kirpikləri isə uzadır.

**Yerkökü** öskürəyi kəsir. Sarımsaqla yeyildikdə ayaq ağrılarını kəsir. Turşusu qara ciyərə faydalıdır, dalaq şişini alır.

## Qəbələ Rayon Mədəniyyət və Turizm şöbəsi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Dəftərxana və təsərrüfat ləvazimatının alınması;
2. İdarənin digər xərcləri;
3. Yanacaq (odun) və sürtki materiallarının alınması;
4. Sair xərclərin alınması;
5. Yumşaq inventar alınması;
6. Bərk inventar alınması;
7. Avadanlıq alınması;
8. Digər maşın və avadanlıqların alınması.

Katirovka sorğusu fevral ayının 10-dək qəbul olunur.

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi 2015-2016-cı tədris ili üçün Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulunu ELAN EDİR

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağrışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli şöbələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşından 18 yaşınadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və həmin ayın 31-dək yaşı 18-ə çatmamış) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir. 2015-ci ilin aprel və iyul tarixli çağırışlarda hərbi xidmətə getməli olan çağırışçılar qəbul edilmirlər.

Abituriyentlər DİN-nin xüsusi həkim komissiyasında muayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər.

İmtahanlar test üsulu ilə III qrup fənləri üzrə azərbaycan və rus dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanın vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə Komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-nin Polis Akademiyasına qəbul olunmuş abituriyentlər dövlət hesabına yataqxana geyim forması, təqaud və yeməklə təmin edilir, təhsil aldıqları müddətdə yataqxanada qalırlar. Akademiyada tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiya barədə ətraflı məlumat **www.pa.edu.az** internet saytında yerləşdirilmişdir.

Məzunlara «hüquqşünaslıq» ixtisası, «polis leytenantı» xüsusi və ehtiyatda olan leytenant» hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul üçün namizədlər Qəbələ Rayon Polis Şöbəsinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər.

—şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti),

—təhsil müəssisəsinin buraxılış sinifində oxuması haqqında DİN-nə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat).

—yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-nə təqdim olunması üçün sağlamlıq haqqında arayış.

—ilkin hərbi qeydiyyat alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş sürəti,

—oxudugu təhsil müəssisəsi tərəfindən DİN-nə təqdim olunması üçün verilmiş xasiyyətnamə.

—9 x12 sm ölçüdə 2 ədəd, 4 x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Ərizə və sənədlərin qəbulu 2015-ci ilin yanvar ayının 21-dən fevral ayının 28-dək (bazar günləri istisna olmaqla) hər gün saat 10-00-dan 17 00-dək Qəbələ Rayon Polis Şöbəsində keçiriləcək

DİN- Tel: 590-98-16, 18-16, 590-97-76, 17-76

Qəbələ RPŞ: (024) 205 18-28, (024) 205 18- 22

İnternet ünvanı DİN **www.mia.gov. az.**

Polis Akademiyası **www.pa.edu.az**


# Bütün iş adamlarına, vətəndaşlara!

## *"Qəbələ" qəzetinin reklam xidməti sizinlədir*

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün bölgələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günləri, toy şənliklərini təbrik etmək sizə böyük şərəf və duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Qəzet məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi 56.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.


## Elanlar

Qəbələ rayonu Böyük Pirəli kənd məscidi dini icmasının (280 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 21 yanvar 2015-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

---

Qəbələ rayonu Bum qəsəbə məscidi dini icmasının (280 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22 yanvar 2015-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

---

Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsi Baş Dövlət İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının qeydiyyat idarəsi tərəfindən 14 oktyabr 2002-ci il tarixdə Həmzəli kənd sakini İsmayılov Hüseyn Məmməd oğlunun adına verilmiş inventar nömrəsi 91, qeydiyyat nömrəsi 1/03 olan **fərdi yaşayış fonduna daxil olan yaşayış evinin texniki pasportu** və müvafiq olaraq **qeydiyyat vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsi Baş Dövlət İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının qeydiyyat idarəsi tərəfindən 14 oktyabr 2002-ci il tarixdə Həmzəli kənd sakini İsmayılov Hüseyn Məmməd oğlunun adına verilmiş inventar nömrəsi 91, qeydiyyat nömrəsi 1/04 olan **fərdi yaşayış fonduna daxil olan yaşayış evinin texniki pasportu** və müvafiq olaraq **qeydiyyat vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası FHN Şimal-Qərb RM-nin kollektivi mərkəzin əməkdaşı **Samir Əzizova**, bibisi **TƏHMİNƏ XANIMIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi N. R. Atakişiyev.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: 5 - 19 - 14.
Ümumi: 5 - 15 - 56.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Sifariş №